Tarix və onun problemləri, №2 2010

**NİGAR DÜNYAMALIYEVA**
*Bakı Dövlət Universiteti, Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müəllimi, Fəlsəfə doktoru (siyasi elmlər)*

# AVROPA İTTİFAQI ÇƏRÇİVƏSİNDƏ SİYASİ ƏMƏKDAŞLIQ PROBLEMİ: ZAMAN KONTEKSTİNDƏ BAXIŞ

Avropanın kollektiv təhlükəsizliyi dövlətlərarası əməkdaşlığa əsaslansa da, siyasi inteqrasiya barədə fikirlər qərbi avropa siyasətçilərinin daim gündəmində olmuşdur. Onların fikrincə, avropa dövlətləri arasında aparılan iqtisadi inteqrasiya inteqrasiya quruculuğunun son məqsədi olan siyasi ittifaqın yaradılması yolunda zəruri zəmin və özül olmalı idi. Lakin təcrübədə iqtisadi inteqrasiya kifayət qədər uzun müddət ərzində inteqrasiya quruculuğunun əsas və demək olar ki, yeganə sahəsi olaraq qalırdı. İnteqrasiya münasibətlərinin məhz bu sahəsində Avropa Birliyi fəaliyyət göstərdiyi müddət ərzində əhəmiyyətli uğurlara nail olaraq dünyanın mühüm ticari və iqtisadi güc mərkəzlərindən birinə çevrildi. [4, səh. 517] Siyasi inteqrasiyaya gəldikdə isə, bu istiqamətdə XX əsrin ortalarında edilən cəhdlər uğursuzluqla nəticələnirdi.

Avropa İttifaqının beynəlxalq münasibətlərdə tək səs olaraq hərəkət etməsi fikri, Avropanın bütünləşmə müddəti qədər köhnədir. [2, səh. 95] «Pleven planı» (1950, 24 oktyabr) adı ilə tanınan Avropa müdafiə birliyinin yaradılması ilə bağlı Fransanın təklifi belə təşəbbüslərdən biri idi. Avropa Kömür və Polad Birliyinə daxil olan altı dövlətin (Fransa, Almaniya, İtaliya, Belçika, Niderland, Lüksemburq) xarici işlər nazirləri müvafiq birliyin təsis edilməsi haqqında 1952-ci il mayın 27-də müqavilə imzaladılar. [3, səh. 226]

Avropa müdafiə birliyinin davamı kimi Avropa siyasi birliyinin yaradılmasına dair layihənin hazırlanması məqsədilə yaradılmış xüsusi assambleya işini müvəffəqiyyətlə başa vuraraq, hazırladığı təklifləri iştirakçı ölkələrin xarici işlər nazirlərinin müzakirəsinə təqdim etdi. Fransa Milli Assambleyasının Avropa müdafiə birliyi haqqında müqaviləni ratifikasiya etməkdən imtina etməsi (1954) siyasi birlik haqqında təkliflərin nəzərdən keçirilməsini lüzumsuz edirdi. Beləliklə, həm müdafiə, həm də siyasi birliyin təsis olunması ilə bağlı səylər uğursuzluqla nəticələndi. Qərbi avropa dövlətlərinin siyasi inteqrasiyaya getməyə tam hazır olmaması

- milli suverenlik məsələsinin qərbi avropa dövlətləri üçün olduqca əhəmiyyətli olmasını və
- iştirakçı dövlətlər arasında qarşılıqlı inamın və güvənin hələ də zəruri səviyyədə olmamasını üzə çıxardı.

XX yüzilliyin 60-cı illərində Birlik çərçivəsində bərqərar olmuş əlverişli iqtisadi zəmin inteqrasiyanın dərinləşməsi və ona siyasi xarakter verilməsi istiqamətində səylər gücləndi. Siyasi əməkdaşlıq yolunda növbəti təşəbbüs Fransa dövlət başçısı Ş. de Qolldan gəldi. 1960-cı ildə Avropa Birliyinin üzvü olan altı dövlətin liderləri xarici siyasətlə bağlı məsələlərin müzakirə edilməsi məqsədilə Birliyin Komissiyasının iştirakı olmadan mütəmadi görüşlər keçirmək barədə razılığa gəldilər. [5, səh. 225] Qeyd etmək lazımdır ki, Fransa dövlət başçısının bu təşəbbüsünün arxasında de Qollun Fransanın dövlət suverenliyinin möhkəmləndirilməsi və inteqrasiya proseslərinin dərinləşməsinin qarşısını almaq istəyi dayanırdı. İstənilən dövlətüstü hakimiyyət prinsipinin əleyhinə olan de Qollun bu təklifi Avropa İqtisadi Birliyini dövlətüstü qurumdan klassik hökumətlərarası təşkilata çevirmək məqsədi daşıyırdı. De Qollun irəli sürdüyü təklif «Fuşe planı»nda daha da inkişaf etdirildi, lakin Fransanın Birlik üzrə digər tərəfdaşları tərəfin-

dən qəbul edilmədi. Belə ki, 1961-ci il fevralın 10-da birliklər tarixində ilk dəfə olaraq üzv ölkələrin dövlət, hökumət başçıları və xarici işlər nazirlərinin iştirakı ilə keçirilən konfransda avropa ölkələrinin siyasi ittifaqının yaradılmasına dair təkliflərin hazırlanması məqsədilə K.Fuşenin rəhbərliyi ilə komissiya yaradıldı. İrəli sürülən Fuşe planı həmin dövr üçün mövcud olan avropa birliklərindən daha üstün mövqeyə malik dövlətlərarası təşkilatın yaradılmasını nəzərdə tuturdu.

Bütövlükdə, XX yüzilliyin 60-cı illərində qərbi avropa dövlətlərinin siyasi ittifaqının yaradılması məsələsi ətrafında iki bir-birinə zidd mövqe Fransa və Almaniyanın timsalında diqqətdən kənarda qalmamalıdır. Bu illərdə iki konsepsiyanın –

- Qərbi Almaniyanın maraqlarına cavab verən dövlətüstü siyasi birləşmə (birlik orqanlarının müvafiq modifikasiyası vasitəsilə) konsepsiyası və
- Fransanın çalışdığı suveren dövlətlərin əməkdaşlığı konsepsiyasının reallaşdırılması uğrunda mübarizənin getdiyi və bu mübarizənin Birlik təsisatlarının fəaliyyətinə təsir etdiyi illərdir.

Şübhəsiz ki, siyasi ittifaqın yaradılması yolunda mövcud maneələr və bu zəmində Birlik çərçivəsində baş verən böhranlar avropa inteqrasiyasının genişlənməsini ləngidirdi, lakin bu proseslərin heç biri XX əsrin 50-ci illərindən vüsət almış birləşmə proseslərinin qarşısını tam ala bilməzdi.

Fransada Ş.de Qollun hakimiyyətdən getməsi ilə siyasi inteqrasiya ideyası yenidən gündəmə gəldi. 1969-cı ilin dekabr ayında Haaqada bir araya gələn altılıq ölkələrinin dövlət və hökumət başçıları qəbul etdikləri bəyannamədə siyasi birlik yolunda inkişafa nail olmaq vaxtının yetişdiyini vurğuladılar. Belçika Xarici işlər nazirliyinin siyasi departamentinin direktoru E.Davinyonun rəhbərliyi altında yaradılan ekspert qrupu hazırladığı məruzədə («Davinyon məruzəsi») «kiçik addımlar» metodu ilə xarici siyasət sahəsində əməkdaşlığa başlamağı təklif edirdi. Təqdim olunan məruzəyə əsasən siyasi əməkdaşlığın:

- Birliyin təsis sənədlərində əks olunması nəzərdə tutulmurdu;
- Birlik çərçivəsindən kənarda həyata keçirilməsi təklif edilirdi;
- İştirakçı-dövlətlər tərəfindən hər hansı öhdəliklərin götürülməsi nəzərdə tutulmurdu;
- Birliyin konstitusion tarazlıq sisteminə (başqa sözlə, parlament və məhkəmənin nəzarət sferasına) aid olunması nəzərdə tutulmurdu;
- Birliyin məmurları tərəfindən deyil, üzv-dövlətlərin məmurları tərəfindən həyata keçirilməsi nəzərdə tutulurdu. [5, səh. 226]

Beləliklə, Davinyon məruzəsində siyasi əməkdaşlığın aparılmasının sadalanan ünsürlərinin təhlilindən belə nəticəyə gəlmək mümkündür ki, siyasi əməkdaşlığın altı avropa dövlətinin iştirakı ilə aparılan iqtisadi inteqrasiyanın tam əksi olması, başqa sözlə real inteqrasiya tendensiyasına deyil, klassik dövlətlərarası əməkdaşlıq prinsipinə söykənməsi nəzərdə tutulurdu. Bununla yanaşı, məruzə siyasi əməkdaşlığın zamanla Birlik sisteminə uyğunlaşdırılmasını nəzərdə tuturdu. [7]

«Davinyon məruzəsi»nə müvafiq olaraq 1970-ci ilin noyabrında Avropa Siyasi Əməkdaşlıq mexanizmi işə düşdü. Mexanizm çərçivəsində üzv-dövlətlərin qarşılıqlı əlaqələrinin bir neçə səviyyədə aparılması nəzərdə tutulurdu. Əməkdaşlığın predmetini informasiya mübadiləsi, məsləhətləşmələrin aparılması və müəyyən problemlə əlaqədar iştirakçı dövlətlərin mövqeyinin üst-üstə düşdüyü hallarda ümumi yanaşmanın işlənib hazırlanması təşkil edirdi.

Heç şübhəsiz, Avropa Siyasi Əməkdaşlığının kifayət qədər sadə, habelə Birlik çərçivəsindən kənarda həyata keçirilən mexanizmi real siyasi inteqrasiya tərəfdarı olan si-

yasi qüvvələri qane edə bilməzdi. Bu səbəbdən bu sahədə daha geniş addımları nəzərdə tutan layihələr dəfələrlə Avropa Birliyinin gündəminə gəlmişdir. Genişmiqyaslı siyasi inteqrasiyanın aparılmasına növbəti cəhd Almaniya və İtaliya xarici işlər nazirlərinin təşəbbüsü ilə Avropa Şurasının (Avropa Birliyinə daxil olan ölkələrin dövlət və hökumət başçılarının sammiti) Ştutqart görüşündə (iyun, 1983) baş verdi. Avropa İttifaqı haqqında təntənəli bəyannamədə dövlət və hökumət başçıları «birgə mövqe»lər və «birgə fəaliyyət» vasitəsilə Avropa Siyasi Əməkdaşlığının səmərəliliyini artırmaq, habelə təhlükəsizliyin siyasi və iqtisadi aspektlərinə dair üzv-dövlətlərin mövqelərinin əlaqələndirilməsi əzmində olduqlarını bəyan etdilər.

Bir neçə il sonra qəbul edilən Vahid Avropa Aktı (1986) Avropa Birliyinə üzv olan dövlətlərin Avropa Siyasi Əməkdaşlığı sahəsində praktik fəaliyyətinin əsas istiqamətlərini əks etdirirdi. [8]

Beləliklə, təxminən otuz il ərzində siyasi inteqrasiyaya dair obyektiv şərait abstrakt bəyanatlardan daha təsirli oldu. Bu sahədə əhəmiyyətli dönüş ancaq XX yüzilliyin 80-ci illərinin sonunda baş verdi. Avropa İttifaqı haqqında müqaviləyə (1992) əsasən İttifaqın ikinci dayağını ümumi xarici siyasət və təhlükəsizlik siyasəti təşkil etdi. Lakin bu mexanizm dövlətüstü inteqrasiya xarakteri deyil, dövlətlərarası əməkdaşlıq xarakteri daşıyır. Bu onunla əlaqədardır ki, üzv-dövlətlər xarici siyasət sahəsində öz suverenliklərini maksimum dərəcədə qoruyub saxlamağa çalışırlar. Maastrixt müqaviləsində ümumi xarici və təhlükəsizlik siyasətinin məqsədləri ümumi şəkildə aşağıdakı kimi qeyd olunur:

- BMT nizamnaməsinin prinsiplərinə müvafiq olaraq İttifaqın ümumi dəyərlərinin, başlıca maraqlarının, müstəqilliyinin və bölünməzliyinin müdafiəsi;
- İttifaqın təhlükəsizliyinin möhkəmləndirilməsi;
- Beynəlxalq təhlükəsizliyin BMT Nizamnaməsinin prinsipləri, Helsinki Yekun Aktının prinsipləri, Paris xartiyasının məqsədlərinə müvafiq olaraq qorunması;
- Beynəlxalq əməkdaşlığa dəstək;
- Demokratiya və qanunçuluğun inkişafı, insan hüquq və azadlıqlarına hörmət. [11, maddə 11, 12]

Avropa İttifaqında xarici aləmlə əlaqələr (ticari-iqtisadi əlaqələr istisna olmaqla) daha çox hökumətlərarası əlaqələndirmə vasitəsilə həyata keçirilsə də, getdikcə bu sahədə əlaqələrin inteqrasiya səviyyəsinə keçməsi tendensiyası özünü biruzə verir. [4, səh. 518] Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasətinin prinsip və istiqamətləri Avropa Şurası tərəfindən müəyyənləşdirilir, yəni onun praktikada həyata keçirilməsi üçün zəruri qərarlar Şura tərəfindən qəbul olunur. Nitsa sammitində (dekabr, 2000-ci il) təhlükəsizlik siyasətinin təsir dairəsinə müdafiə məsələlərinin şamil edilməsi haqqında qərar qəbul edildi. [9]

2007-ci ilin dekabrında Portuqaliyanın paytaxtında Avropa İttifaqının liderləri Avropanın siyasi institutları sistemində islahatların aparılması haqqında müqavilə imzaladılar. «Lissabon sazişi» adını almış sənəd keçən yüzilliyin 90-cı illərinin ortalarından hazırlanmasına başlanılmış Avropa Konstitusiya layihəsinin daha sadələşdirilmiş variantı oldu. Belə ki, Avropa Konstitusiya layihəsi 2005-ci ildə Fransa və Niderlandda keçirilən referendumlarda uğursuzluqla nəticələndi. 1 dekabr 2009-cu ildə qüvvəyə minən Lissabon müqaviləsinə əsasən Avropa İttifaqının icraedici orqanı olan Avropa Komissiyasında islahatların aparılması, Avropa Parlamentinin səlahiyyətlərinin genişləndirilməsi nəzərdə tutulur. [10]

Beləliklə, avropa siyasi əməkdaşlığının keçdiyi tarixi inkişaf yoluna nəzər salaraq və yarım əsrdən artıq müddət ərzində cərəyan edən prosesləri təhlil edərək belə nəticəyə

gəlmək mümkündür ki, bu gün Avropa İttifaqı istər xarici siyasət, istər təhlükəsizlik siyasəti, istərsə də müdafiə siyasəti sahəsində sıx dövlətlərarası əməkdaşlığın həyata keçirilməsi istiqamətində inamla irəliləyir. Dünyanın aparıcı ticari və iqtisadi güc mərkəzlərindən biri olan Avropa İttifaqı mövcud problemlərə rəğmən dünya siyasətinin aktual problemlərinə dair vahid mövqe nümayiş etdirməyə müvəffəq olur. Daimi orduya malik olmamasına baxmayaraq bu gün İttifaqın çevik reaksiya qüvvələri Avropa və dünyanın müxtəlif bölgələrində sülhün bərqərar olması, humanitar əməliyyatların keçirilməsi və böhranların nizama salınması məqsədilə mülki və hərbi əməliyyatlarda iştirak edir.

### ƏDƏBİYYAT:

1.Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. B., 1998
2.Məmmədov M., İbadov E. Beynəlxalq iqtisadi təşkilatlar. B., 2008
3.Международные отношения: теории, конфликты, организации. Под ред. П.А.Цыганкова. М., 2004
4.Современные международные отношения. Учебник / Под ред. А.В.Торкунова. М., 1999
5.Шемятенков В.Г. Европейская интеграция. М., 2003
6.Шреплер Х.А. Международные организации. Справочник. М., 1995
7.European Political Cooperation // http//europa.eu/scadplus/glossary/european_political_cooperation_en.htm
8.Single European Act (1986) / Official Journal 169 of 29 June 1987 / http//eur-lex. europa.eu/en/treaties/index.htm
9.Treaty of Nice / Official Journal C 80 of 10 March 2001 / http// eur-lex.europa.eu/en/treaties/index.htm
10.Treaty of Lisbon amending the Treaty on European Union and the Treaty establishing the European Community, signed at Lisbon, 13 December 2007 /Official Journal C 306 of 17 December 2007 / http// eur-lex.europa.eu/en/treaties/index.htm
11.Treaty on European Union / Official Journal C 191, 29 July 1992 / http// eur-lex.europa.eu/en/treaties/index.htm

**ДУНЬЯМАЛИЕВА Н.З.**
***К.н., преподаватель, Бакинский Государственный Университет, кафедра Дипломатии и современных интеграционных процессов***

Статья посвящена проблеме политического сотрудничества в рамках Европейского Союза. Европейский Союз (ЕС) включающий в свой состав 27 государств, занимает уникальное место в системе международных организаций. Уникальность этого объединения состоит в том, что ЕС на сегодняшний день можно считать единственным образованием наднационального характера, в рамках которого осуществляется интеграция участвующих в ней стран, их постепенное сближение через передачу все более широких полномочий в регулировании общественной жизни на уровень всего объединения. Безусловно объективной основой интеграционных процессов в рамках ЕС является экономическая составляющая. Это традиционное направление интеграционных процессов постепенно дополняется сотрудничеством в других областях межгосударственных отношений.

ЕС становится все более заметной структурой в системе глобальных международных отношений; в рамках сообщества создана система внешнеполитических консультаций и согласования, позволяющая государствам-членам весьма часто «говорить одним голосом» и придающая ЕС характер самостоятельного действующего лица на международной арене. Это проявляется в ООН, на многих международных конференциях и переговорах, в связи с различными проблемными международно-политическими ситуациями.

В статье подробно анализируется историческая эволюция политического сотрудничества в рамках европейской интеграции, раскрываются такие механизмы как Европейское По-

литическое Сотрудничество, общая внешняя политика и политика безопасности, а также основные аспекты политики ЕС.

**DUNYAMALIYEVA N.Z.**
**Ph.D. (political science), lecturer, Baku State University, Department of International Relations**

Article talks about political cooperation problem within European Union. Before becoming a real political objective, the idea of uniting Europe was just a dream in the minds of philosophers and visionaries.

The idea that a strong Europe should act as one on the world stage has encouraged member countries to work together to achieve a coherent approach to foreign policy. Progress over the years has been slow, but steady.

The first step was an ambitious but unsuccessful attempt in the early 1950s to create a European Defence Community among the six founding members of the European Union. Then came a process called 'European political cooperation', launched in 1970, which sought to coordinate the positions of member states on foreign policy issues of the day. EU countries produced joint statements whenever they could. But on particularly sensitive issues, it was not always possible to reach the required unanimous decision.

In the last 15 years, the Union has intensified efforts to play an international political and security role more in line with its economic status. The conflicts that erupted in Europe after the end of "cold war" convinced EU leaders of the need for effective joint action.

In parallel with its growing economic and trade responsibilities, the EU has created its own foreign and security policy. This enables it to speak – and act – as one in world affairs. Regional conflicts in Europe and elsewhere in the 1990s and the need to fight international terrorism convinced EU leaders to create formal instruments of both diplomacy and intervention. More recently, the fight against international terrorism has strengthened this conviction.

***Rəyçilər: s.e.n.K.C.Məmmədov, t.e.d.M.C.Qasımlı.***
***BDU Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsi EŞ-nin 02 aprel 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***